# Kiçik məktəblilərdə bədii qiraət üzrə aparılan işlərin şagirdlərin ümumi tərbiyəsinə təsiri

**Nigar Nofəl qızı Ədilova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** adilzade.nigar@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. Q.İ. Məşədiyev,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** müqayisə, münasibət, səciyyəvi xüsusiyyətlər, yoldaşlıq, tənbəllik, zülm, ədalət, sədaqət
**Ключевые слова:** сравнение, отношение, характерные черты, дружество, ленивость зло, справедливость, преданность
**Key words:** comparison, attitude, specific traits, friendship, laziness, evil, fairness, loyalty

Təlim prosesi kiçikyaşlı məktəblilərdə əxlaqi keyfiyyətlərin formalaşdırılmasında müstəsna dərəcədə mühüm rol oynayır. Dərsliklərdə məktəblilərə təkcə biliklər verilmir, eyni zamanda onlarla tərbiyəvi iş aparılır. Bu cür tərbiyəvi iş müəllim sinifə daxil olan andan dərsin sonunadək - 45 dəqiqə ərzində həyata keçir. Keçilən və öyrənilən hər bir mövzu tərbiyəvi əhəmiyyətə malikdir. Deməli, təlimin tərbiyəedici funksiyası böyükdür. Təlim prosesində məktəblinin təkcə hafizəsindən deyil, onun təfəkküründən, təxəyyülündən, düşüncəsindən və iradəsindən istifadə olunur.

Bədii qiraət şəxsiyyətin formalaşmasının vasitələrindən biridir. Onun köməyi ilə məktəbli kitabdan, dərslikdən bilik alaraq özünü zənginləşdirir. Kiçikyaşlı məktəblilərə bədii nümunələr vasitəsilə mənəvi keyfiyyətlərin aşılanmasında təlim, dərs prosesi ilə birgə sinifdən xaric tədbirlər də mühüm rol oynayır. Belə ki, 1-4 sinif şagirdləri burada daha fəal olur, mövzuların müzakirəsində yaxından iştirak edirlər. Bu kimi tədbirlər təkcə öyrənilən biliklərin tətbiqinə deyil, həm də onların hiss və duyğularının, mənəvi keyfiyyətlərinin inkişafına imkan yaradır. İbtidai siniflərdə tədris olunan “Təbiətşünaslıq“ dərsliyində təbiətlə bağlı məsələlər şərh olunanda bədii yaradıcılıq nümunələrinə də yer verilir. Həmin nümunələrdəm müəllim mənəvi tərbiyə məqsədilə istifadə edir. 4-cü sinif dərsliyində ”Yazda təbiət oyanır“ adlı şerə diqqət yetirək:

Sən gələndə, qaranquş
Sevimli ölkəmizə
Baharın gəlməsini
Xəbər verirsən bizə.

Quşlar yığışıb gəlir,
Canlanır yaşıl meşə.
Baharın carçısısan
Qaranquşum həmişə.

Bədii əsərlərin janrları müxtəlifdir. Ədəbi janrların hər birinin öz üslubi priyomları, quruluşu olduğuna görə onların oxucuya təsiri də fərqli olur. Əsərin şagird tərəfindən düzgün oxu-

nulmasını təşkil etmək üçün onun xüsusiyyətlərini bilməli, uyğun metod və priyomlardan istifadə olunmalıdır.

Hekayə janrında hadisələr müəyyən xətt üzrə ardıcıllıqla baş verir və canlı danışıq dili ilə nəql olunur. Bu cür hadisələri şagird asanlıqla izləyir və yadda saxlayır. Birinci və ikinci siniflərdə müəllim tərəfindən hekayənin oxunması daha vacibdir. Emosional və dramatik hadisələrlə zəngin olan hekayələr isə müəllim nəqli əsasında yaxşı mənimsənilir. Şagirdlərə bədii obrazların daha dərin təsir bağışlaması üçün müəllim hadisələrin baş vermə şəraitini və qəhrəmanları daha dolğun təsəvvür edir. Hekayədə iştirak edən şəxslərin, yəni qəhrəmanların xarakterik əlamətlərini, xarici görkəmini şagird müəyyənləşdirir. Məsələn, 1V sinifdə M.Qorkinin "Arxip baba və Lyonka" hekayəsindən şagird Lyonkanın daxili aləmini, psixologiyasını əks etdirən ifadələri seçir. Lyonkanı aşağıdakı kimi səciyyələndirmək olar: babasını çox sevir, onun öləcəyi yadına düşəndə ağlayır, babası ölsə avara gəzməməyi, çayçı dükanında və ya başqa bir yerdə iş tapıb işləməyi qərara alır, sədəqə yığmaq istəmir, babasını da bu işdən çəkindirir, diqqətli və nəzakətli, rəhmli və xeyirxahdır, yaylığını itirmiş qıza kömək etmək istəyir, oğurluğu alçaqlıq hesab edir, babasını oğurluq üstündə danlayır, babasını təhqir etdiyi üçün üzr istəyir.

İkinci sinifdən etibarən şagirdlər xasiyyətnamə yazmağı, surətləri tutuşdurmağı öyrənirlər. Məsələn, "Acı su" hekayəsində Vaqif və Ramiz surətləri tutuşdurulur. Şagirdlər bildirirlər ki, Ramiz laqeyd, diqqətsiz, yaşlılara hörmət etmək istəməyən, lakin öz təqsirini başa düşən və ona görə xəcalət çəkəndir. Vaqif isə diqqətlidir. Yoldaşına nümunə olmağa və onu yaxşı yola dəvət etməyə çalışandır. Üçüncü və dördüncü siniflərdə bu sahədə iş bir qədər də mürəkkəbləşir. Şagirdlər obrazları müqayisə etmək, qəhrəmanların hərəkətlərini müqayisə etməklə yanaşı, onlara münasibət bildirməyə, bunun səbəbini izah etməyə çalışırlar.

Kiçikyaşlı məktəblilərin mütaliəsində nağıllar mühüm yer tutur. "Oxu" dərsliklərində xalq nağılları ilə yanaşı yazıçılar tərəfindən yazılmış nağıllara da geniş yer verilmişdir. Hekayədə olduğu kimi nağılda da fabula, ideya, həyata uyğun gəlməyən fantastik hadisələr, əşyalar (bircə anda şəhərin salınması, adamın yox olması, uçan xalça, danışan quş və s.) vardır. Nağıllardakı fikirlərin əyləncəli şəkildə parlaq obazlarla verilməsi uşaqların təxəyyülünü inkişaf etdirir. Hadisələrin dramatikliyi, personajların canlılığı uşaqları xarici aləmi obrazlı görməyə alışdırır, onların yaradıcı marağını inkişaf etdirir. Nağılların zəngin dili şagirdlərin nitqini inkişaf etdirir, onları xalqımızın ruhu, soykökü ilə ünsiyyətə girməyə, tükənməz söz xəzinəsinə, mədəni sərvətimizə yiyələnməyə doğru aparır. Onlar şagirdi təmənnasız, təvazökar, ədalətli, mədəni, xeyirxah olmağa çağırır, uşaqlarda eybəcərliklərə gülüş, şər qüvvələrə nifrət oyadır, əsrlər boyu toplanmış xalq müdrikliyini təbliğ edir. Ona görə də giriş müsahibəsi şagirdləri nağılın çox vaxt örtülü olan əxlaqi ideyasını başa düşməyə hazırlamalıdır.

Dahi şair Nizami feodal cəmiyyətinin hökm sürdüyü bir dövrdə yaşamış, zəhmətkeş xalqın taleyini düşünmüş,insan və cəmiyyət haqqında humanist görüşlərini, bəşəri arzularını öz poema və hekayələrində ifadə etmişdir. Nizaminin mənzum hekayə və nağıllarında dostluq və yoldaşlıq münasibətləri - əməyin və vərdişin təntənəsi, zülm və haqsızlığın ifşası, bilik, sənət və elmin faydası, azadlıq, bərabərlik və humanizm probleminə geniş yer verilmişdir. O, ədəbiyyatımıza ilk dəfə zəhmət adamının surətini gətirməklə maddi nemətlər yaradanları cəmiyyətin müftəxor, tənbəl, zülmkar təbəqəsinə qarşı qoyur. "Kərpickəsən kişinin dastanı" hekayəsində şərəfli əmək adamı böyük rəğbətlə tərənnüm olunmuşdur. Qoca bir kişi kərpic kəsməklə özünə ruzi qazanır. O işlə məşğul ikən bir gənc qocanın qarşısına gələrək ona deyir ki, mən doğrudan sənə heyranam, nə qədər bu palçıqda işləmək olar. Səndən heç kim bir qarın çörək əsirgəməz. Sudan palçıqdan nə əldə edəcəksən. Bu, cavan adamların işidi. Qoca adamsan, özünü ahıllarla

bərabər tut. Qoca kərpickəsən cavab verir ki, cavan oğlansan, cahillik edib acıl sözlərinlə mənə ağıl öyrətmə. Belə ağır işə əlimi ona görə öyrətdim ki, sənin kimi adama əl açıb xəcalətə düşməyim. Mən halal zəhmətimlə heç kəsə möhta deyiləm. Öz əlimin əməyi ilə yaşayıram. Qocanın bu müdrik sözlərini eşidən cavan xəcalət çəkir. Orada dayanmır, tezliklə uzaqlaşır. Kərpickəsən qocanın müdrik cavabı gənci düşündürür. Onu əməyə sövq edir, öz əməyi ilə yaşamağa ruhlandırır. Gənc dərk edir ki, əmək şərəfli işdir, əmək insanın başını ucaldır. Onu başqalarına möhtac olmağa, əl açmağa qoymur.

Şair dostluq və yoldaşlıq mövzusunda yazdığı əsərlərində insanı müxtəlif şəraitdə sınaqdan keçirir. Dostluğun qədrini bilməyən, ancaq özünü düşünən dayaz təbiət, xudbin adamları gülünc vəziyyətə salır, ifşa edir. ”Yaralı uşağın dastanı”nda göstərilir ki, bir uşaq öz yoldaşları ilə çölə gəzməyə gedir. Onlar qaçışırlar.Bu zaman uşaq quyuya yıxılır, ayağı və bel sümüyü sınır. Onun yaxın dostu deyir: ”Gəlin bunu quyunun dibində gizlədək ki, sirri bilib bizi danlamasınlar”. Ona düşmən olan ağıllı uşaq isə: ”Yox, o mənimlə düşməndir, bunu bilsələr, elə bilərlər ki, mən etmişəm” - deyir. Ağıllı uşaq tez qaçıb yıxılan uşağın atasına xəbər verir. ”Ağıllı düşmən ağılsız dostdan yaxşıdır“ zərb-məsəlinə əsaslanan şair hekayənin sonunda göstərir ki, ağıllı adam hər işi bacarar və müvəffəq olar.

Uşaqları maraqlandıran janrlardan biri də təmsildir. Onun əsasında alleqoriya durur. Təmsil yazarkən yazıçı heyvan, quş, həşərat, bitki və başqa əşyaların obrazlarında insanların tipik xasiyyətlərinə (yalançılıq, oğurluq, ədalətsizlik, lovğalıq, acgözlük, qorxaqlıq və s.) gülür, öyüd-nəsihət verirlər. Personajın xasiyyətnaməsini verərkən onun dilində işlənən sözlərdən istifadə edilir. Məsələn, M.Ə.Sabirin “Qarğa və tülkü” təmsilində tülkü qarğaya müraciətlə deyir:

Dedi: ”Əhsən sənə, a qarğa ağa!
Nə nəzakətlə qonmusan budağa!
Bəzədin sən bu gün bizim çəməni,
Şad qıldın bu gəlməyinlə məni.

Nə gözləsən, nə xoşliqasən sən,
Yeri var söyləsəm - hümasən sən.
Tüklərindir ipək kimi parlaq,
Bədnəzərdən vücudun olsun iraq!
Bu yəqindir ki, var sevimli səsin,
Oxu, versin mənə şəfa nəfəsin!”

Bu sözlərə əsasən şagirdlər onun nə qədər yaltaq olduğunu yəqin edirlər. Uşaqlara məlum olur ki, qarğada nə tülkünün dediyi görkəm, nə də səs var. Qarğa tülkünün əlinə keçsə, onu parçalayıb yeyər, lakin buna imkan olmadığından dilini işə salıb qarğanı aldadır və onun ağzından yerə düşən pendiri yeyir. Müəllif sonda nəticəni belə verir:

“Olmasaydı cəhanda sarsaqlar,
Ac qalardı, yəqin ki, yaltaqlar”.

Q.Zakirin “Aslan,qurd və çaqqal“ təmsilində qurdun böldüyü şikar payı aslanın xoşuna gəlmədiyindən onun gözünü çıxarır. Çaqqal bu hadisəni görüb dərhal nəticə çıxarır: əldə edilən qənimətin hamısını aslana verir.Aslanın bu bölgüdən xoşu gəlir və bunu kimdən öyrəndiyini çaqqaldan soruşur.Çaqqal ehtiramla:

Dedi: -“Mən bilməzdim binadan, başdan,
Öyrəndim o gözü çıxan qardaşdan”.

Q.Zakir “Xain yoldaşlar haqqında” və “Sədaqətli dostlar haqqında“ təmsillərində insana xas olan səciyyəvi xüsusiyyətlərə əsaslanır. “Xain yoldaşlar haqqında” təmsilində ilan və tısbağa dəvə ilə yoldaşlıq etmələrinə baxmayaraq ona xəyanət edirlər. Tapdıqları çörəyi üç yerə bölmək əvəzinə kələk qurub dəvəni bu nemətdən məhrum etmək, onun payını da özləri yemək istəyirlər. “Sədaqətli dostlar haqqında“ təmsilində ahu tısbağa qarğa və kəsəyən bir –birinə möhkəm tellərlə bağlıdırlar. Onların heç biri öz təbiəti etibarilə yırtıcı deyildir,hər birinin özünəməxsus xasiyyəti, həyat tərzi vardır. Ahu sürətlə qaçmaq, qarğa uçmaq, kəsəyən kəsmək, tısbağa gizlənmək kimi keyfiyyətə malikdir. Məhz buna görə də onlardan biri dara düşdükdə, o biriləri öz qabiliyyətlərindən məharətlə istifadə edib yoldaşlarını xilas etməyə cəhd göstərirlər.

Müəllim hər bir şagirdin evdə kitabxanasının təşkilinə nail olmalıdır. Ev kitabxanasının yaradılması və uşağın müstəqil mütaliəsinin təşkili onun yaşına müvafiq kitabın seçilməsi ilə əlaqədar valideynlərə məsləhət verilməlidir.

**Məqalənin aktuallığı.** Şəxsiyyətin formalaşmasında bədii qiraət əsas vasitələrdən hesab olunur. Məktəbli məhz onun köməyi ilə kitab və dərslikdən bilik alaraq özünü zənginləşdirir. Kiçikyaşlı məktəblilərə bədii nümunələr vasitəsilə mənəvi keyfiyyətlərin aşılanmasında təlim, dərs prosesi ilə yanaşı, sinifdənxaric tədbirlərdən istifadə də böyük əhəmiyyət kəsb edir. Məqalə də məhz bu mövzuya həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ibtidai sinif şagirdlərinin təkcə biliklərinin tətbiqinə deyil, həm də onların hiss və duyğularının, mənəvi keyfiyyətlərinin inkişafına imkan yaradan bədii yaradıcılıq nümunələri şərh olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Н.Н. Адилова**

## Влияние художественного чтения на общее образование младших школьников

## Резюме

О том, что высмеивают басни, можно говорить очень долго. В первую очередь, басни высмеивают людские пороки: ложь, безнравственность, лень, глупость, хвастовство, невежество. В героях басен каждый человек находит животного, похожего на себя.

Ситуации, описываемые авторами в баснях, всегда очень жизненны, житейски и, потому, любой человек способен перенести их на свою собственную жизнь, а значит найти у себя один из пороков и исправить его. Кроме этого, за счет сатирических, ироничных ноток басни, читатель не только учится понимать свои пороки и исправлять их, но и учится смеяться над самим собой. Такое чувство юмора безусловно крайне полезно для психологического здоровья человека. Одна еврейская пословица гласит: «Умеющие смеяться над собой блаженны, ибо источник их услады не иссякнет до конца дней их».

Мораль сей басни такова: читайте басни, смейтесь над собой и становитесь мудрее, человечнее, дальновиднее. И пусть ваш воз всегда достигает цели назначения.

**N.N. Adilova**

## Influence of artistic reading on junior high school students' overall education

### Summary

When pupils read book series, there’s an element of predictability of what they can expect from the story.It can be easier for pupils to read when they have an idea and understanding of the setting, characters, and plot of a book series. Pupils have more comprehension support in book series: each new book in the series follows and builds on the first, making it easier for kids’ comprehension.

It’s a wonderful thing to see a child enjoying reading, and feeling really good at it! Book series make it easier for children to understand what’s going on in the book, and this increases their feeling of competence. As their comprehension and fluency grows, so does their reading confidence.

**Redaksiyaya daxil olub:** 29.02.2020